**UOT: 82**
https://doi.org/10.59849/2409-4838.2025.1.27

# 1920-30-CU İLLƏR AZƏRBAYCAN MÜHACİRƏT NƏSRİNƏ TOPLU BİR BAXIŞ

**Aysel Rasim qızı Əfəndiyeva**
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı, Azərbaycan
ayselefendiyeva6@gmail.com

*Siyasi mühacirətimizin Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonrakı dalğası kütləvi və mütəşəkkil xarakter daşıdığından yazılı irsi də olduqca zəngin və çoxcəhətlidir. Müxtəlif mövzularda qələmə alınmış şeirlər, nəsr və dram əsərləri, ədəbiyyatşünaslıq, bədii və siyasi publisistika örnəkləri bu qənaətimizi təsdiq edir.*

*1920-30-cu illər Azərbaycan mühacirət ədəbiyyatında poeziya ilə yanaşı, nəsr də özünəməxsus yer tuturdu. Bu dövrün nəsri daha çox bədii-sənədli və bədii-fəlsəfi əsərlər, qismən də hekayələrlə təmsil olunur.*

*Sözügedən dövrün nəsr əsərlərini mövzu baxımından, əsasən üç qrupda təsnif etmək mümkündür: istiqlal uğrunda mücadilə, istiqlal mücahidlərinin portreti, başqa sözlə desək, "Azərbaycan davası"nın inikası; vətəndaş cəmiyyəti quruculuğunu və mənəvi-əxlaqi problemləri əks etdirən əsərlər; bolşevizmə, totalitar sovet rejiminə qarşı amansız mübarizənin təsviri, "düşərgə" mövzusu.*

*Məqalədə belə bir yekun qənaət ifadə olunur ki, 1920-30-cu illər Azərbaycan mühacirət nəsri istər kəmiyyət, istərsə də mövzu baxımından zəngin olmaqla yanaşı, bu irsin böyük əksəriyyəti sənətkarlıq cəhətdən də dəyərli əsərlərdir. Həmin nəsr nümunələri ayrı-ayrılıqda, bir çoxu ilk dəfə olmaqla, ölkəmizdə və xaricdə dərc etdirdiyimiz müxtəlif məqalə, konfrans materiallarında bu və ya digər dərəcədə araşdırılaraq təhlil olunmuş, dəyərləndirilmişdir. Sözügedən dövrün mühacirət nəsrinə ümumi bir baxışı əks etdirən bu məqalədə isə janrın inkişaf yolu mövzular üzrə və xronoloji ardıcıllıqla izlənilmişdir.*

***Açar sözlər:*** *hekayə, bədii-fəlsəfi nəsr, bədii-sənədli nəsr, mövzu, siyasi mühacirət*

## GİRİŞ

Siyasi mühacirətimizin Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonrakı dalğası kütləvi və mütəşəkkil xarakter daşıdığından yazılı irsi də olduqca zəngin və çoxcəhətlidir. Müxtəlif mövzularda qələmə alınmış şeirlər, nəsr və dram əsərləri, ədəbiyyatşünaslıq, bədii və siyasi publisistika örnəkləri bu qənaətimizi təsdiq edir. Dəyərli elmi rəhbərim mühacirətşünas alim fil.e.d. Nikpur Cabbarlının doğru olaraq qeyd etdiyi kimi,"Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra yaranıb, zaman-zaman inkişaf etmiş mühacirətimiz ... müxtəlif ölkələrdə özünün siyasi qurumlarına, mətbuat orqanlarına malik idi. Ən başlıcası isə bu mühacirət məskunlaşdığı ölkələrdə özünün siyasi, ədəbi-mədəni mühitini yaratmış, yetmiş il ərzində müxtəlif vasitələrlə Azərbaycan milli hərəkatını davam etdirmiş, zəngin ideoloji-siyasi və ədəbi-elmi irs qoyub getmişdir" [1, s. 18].

1920-30-cu illər Azərbaycan mühacirət ədəbiyyatında poeziya ilə yanaşı, nəsr də özünəməxsus yer tuturdu. Bu dövrün nəsri daha çox bədii-sənədli və bədii-fəlsəfi əsərlər, qismən də hekayələrlə təmsil olunur. Belə ki, irihəcmli roman, povestlərin yazılması, nəşri üçün imkanlar yetərli deyildi. Eyni sözləri dram əsərlərinə də şamil etmək olar. Burada vəziyyət daha mürəkkəb idi. Maddiyyatla yanaşı, əsərlərin nümayişi üçün icazə alınması, yer kirayəsi, tamaşaçı kütləsinin təmin edilməsi ciddi problemlərdən idi.

Sözügedən dövrün nəsr əsərlərini mövzu baxımından, əsasən üç qrupda təsnif etmək mümkündür: istiqlal uğrunda mücadilə, istiqlal mücahidlərinin portreti, başqa sözlə desək, "Azərbaycan

davası"nın inikası; vətəndaş cəmiyyəti quruculuğunu və mənəvi-əxlaqi problemləri əks etdirən əsərlər; bolşevizmə, totalitar sovet rejiminə qarşı amansız mübarizənin təsviri, "düşərgə" mövzusu.

Əlbəttə, bununla belə, oxucu əsərlərdə qürbət həyatı, maddi-mənəvi sıxıntılar, saf məhəbbət, Vətən həsrətinin bədii əksi ilə də qarşılaşır. Hər bir ədəbi nümunədə hadisələr real həyatdan götürülür və o qədər canlı təsvir edilir ki, bəzən hekayə ilə xatirənin sərhədlərini müəyyənləşdirmək, bir-birindən ayırmaq çətin olur.

Məhəmməd Əmin Rəsulzadə, Əhməd Ağaoğlu, Mirzə Bala Məhəmmədzadə, Məhəmməd Əli Rəsulzadə, Fuad Əmircan, Məhəmməd Sadıq Aran (Sənan) 1920-30-cu illər mühacirət nəsrinin inkişafında özünəməxsus rol oynamışlar. Mühacirət nəsrinin formalaşmasında sözsüz ki, qəzet və jurnalların müstəsna xidmətləri olmuşdur. Sözügedən dövrdə həm Azərbaycan mühacirət mətbuatında ("Yeni Kafkasya", "Odlu yurd" "Bildiriş", "İstiqlal", "Qurtuluş"), həm də Türkiyə mətbuatında Azərbaycan mühacirət nəsri örnəklərinə yer verilmişdir. Mühacirlərdən Ə.Ağaoğlunun nəsr əsərləri isə bir qayda olaraq, Türkiyə mətbuatında ("Akın", "Cümhuriyyət", "Hər ay", "İkdam", "Milliyyət") yayımlanmış, bir qismi isə sonradan ayrıca kitab şəklində çap olunmuşdur.

Xronoloji baxımdan izləsək, ilk hekayə və xatirələrin "Mim." imzalı yazıçıya aid olduğu üzə çıxar. Belə ki, onun "Yeni Kafkasya" məcmuəsində "Acı xatirələr" sərlövhəsi ilə dərc olunan "Cəfər bəy" [3], "Gülzar xanım" [4], "Xatirat və Təəssürat. O gün və... bu gün" [5], "Əlifoğlu Məhərrəm" [6], "Annə, gördüm" [7] mühacirət nəsrinin ilk nümunələri sayıla bilər. Həmin əsərlərin mövzusu, ideyası, aktuallığı barədə biz əvvəlki yazılarımızda bəhs etmişik. İndi onu deməklə kifayətlənirik ki, bu kiçik həcmli nəsr örnəkləri böyük mücahidin şahidi və iştirakçısı olduğu olayların bədii inikasıdır, burada həbsxana həyatının acıları, insanları faciələrə sürükləyən rejimin mənfur fəsadları ustalıqla qələmə alınmışdır.

"Mim." imzasının kimə aid olduğu barədə tədqiqatçıların bu günə qədər əsaslandırılmış fikrinə təsadüf etmirik. Odur ki, əsərin müəllifinin kimliyi barədə mülahizələrimizi bölüşmək istərdik. Qənaətimizə görə, bu imza ilə sözügedən məcmuədə 5 yazı dərc edilmişdir. Məlumdur ki, M.B.Məhəmmədzadə "Yeni Kafkasya"da müxtəlif imzalarla çox sayda bədii və publisistik əsərlər dərc etdirmişdir. Türk tədqiqatçı Səbahəddin Şimşirə görə məcmuədə M.Ə.Rəsulzadənin imzalı və ya imzasız 215-dək məqaləsi işıq üzü görüb [8, s. 45]. Araşdırmaçı Adəm Can isə Məhəmməd Əminin açıq imzalarla (Resulzâde Mehmet Emin, Mehmet Emin Resulzâde, Resulzâde, M.E. və Mim.Elif) cəmi 42 məqalə dərc etdirdiyini, imzasız yazılar barədə isə dəqiq sayın məlum olmadığını vurğulayır [9, s. 111]. M.B.Məmmədzadənin də məcmuədə Mirza Bala, M.Mirza Bala, Mehemmedzade Mirza Bala, Taşdemir, M[im].Mirza Bala imzaları ilə xeyli yazısı çap olunmuşdur. Zənnimizcə, əsərlərin mövzusu, dili, üslubu bu imzanın M.Ə.Rəsulzadəyə aid olduğunu ehtimal etməyə əsas verir. Nəzərə alsaq ki, "Yeni Kafkasya"nın nəşrə başladığı ilk vaxtlarda M.B.Məhəmmədzadə ara-sıra İrandan məqalələr göndərsə də, hələ Türkiyədə–İstanbulda məskunlaşmamışdı, o zaman "Mim" imzasının kimə mənsub olduğunu daha inamla söyləmək olar.

Mühacirət nəsrinin təşəkkül dövrünün nümunələrindən bəhs edərkən M.B.Məhəmmədzadənin "Vətən qaldı" hekayəsinin [10] adını çəkməmək olmaz. "Azərbaycan mühacirət ədəbiyyatında kiçik janrın ən parlaq örnəyi sayılmağa layiq" [2] "Vətən qaldı" nəinki mühacirət ədəbi irsinin, bütövlükdə nəsrimizin ən kamil nümunələri sırasında seçkin yer tutur və onu M.B.Məhəmmədzadənin bədii yaradıcılığının zirvəsi hesab etmək olar. Mirzə Balanın "Yıldırım" [11], "Azərbaycanın Ergenekondan çıxdığı gün (Xatirə dəftərimdən)" [12], "On dəfə öldürülən" [13], "İran xatirələri. İranda Azərbaycan mühacirləri" [14] adlı hekayə və xatirələri də dövrün mühacirət nəsrinin qiymətli örnəklərindəndir.

**ƏSAS HİSSƏ**

1920-30-cu illər M.Ə.Rəsulzadənin mövcud ictimai-siyasi rejimə qarşı, həmçinin mühacirlərin təşkilatlanması, mətbuat orqanlarının nəşri istiqamətində əzmkar fəaliyyəti ilə yanaşı, bədii, publisistik, ədəbiyyatşünaslıq sahəsində yaradıcılığı ilə əlamətdardır. O, bir tərəfdən sovet ideologiyasına qarşı amansız mübarizə aparır, sovet mətbuatının hücumlarına kəskin, tutarlı cavablar verir, rejimin saxta, qondarma ədəbi nəzəriyyəsini ifşa edir, digər tərəfdən də əsl milli ədəbi nümunələr yaradır, milli ədəbiyyatşünaslığın formalaşmasına töhfəsini verirdi. Biz bu qənaətdəyik ki, mühacirət nəsrimizdə milli istiqlal hərəkatının inikası baxımından diqqəti cəlb edən əsərlərdən biri də M.Ə.Rəsulzadənin "Qəzetəçi Seyyid" [15] hekayəsidir. Müəllif bu əsərlə mühacirət ədəbiyyatının incilərindən birini yaratmış, həmin dövr mühacirət nəsrinin təşəkkülündə mühüm rol oynamışdır.

Bədii, publisistik yaradıcılığı, ictimai-siyasi, pedaqoji fəaliyyəti ilə tanınan Məhəmməd Sadıq Aran da "Sənan" imzası ilə "Yeni Kafkasya"da dərc etdirdiyi "İstiqlal mücadiləsindən bir vaq'a (Xatirə dəftərimdən bir yarpaq)" [16] və "Məşum bir xatirə" [17] adlı yazıları ilə haqqında bəhs olunan dövrün nəsrinin yaradıcıları sırasındadır.

Dəmirçioğlu imzası ilə "Yeni Kafkasya" məcmuəsində verilmiş "Zərif Əfəndi" [18] və "Bu günün xatirəsi" [19] adlı əsərlər də mühacirət nəsrinin təşəkkül mərhələsinin mətbu örnəkləridir. Fuad Əmircanın eyni məcmuədə çıxan "İntiqam alan kölgə"si [20] də həmin dövrdə qələmə alınmışdır.

Artıq 1930-cu illərdə mühacirət nəsri, N.Cabbarlının da qeyd etdiyi kimi, həm mövzu, həm də janr baxımından müəyyən qədər irəliləmişdi. Dövrün maraqlı bədii örnəklərindən biri 1930-cu il "Bildiriş" qəzetində çıxan B.E.Ağaoğlunun "Solovkidə gördüklərim" əsəridir [21]. Əsərin müəllifinin kimliyi barədə müxtəlif ehtimallar irəli sürülsə də, bu barədə hələlik səhih fikir söyləmək mümkünsüzdür. Lakin əsər mühacirət nəsrinin ən sanballı nümunələrindəndir və sovet rejiminin qəddarlığını, eyni zamanda Azərbaycan istiqlalçılarının mücadiləsini bütün tərəfləri ilə əks etdirən xatirə kimi dəyərlidir.

"Odlu yurd" dərgisinin 27 aprel 1931-ci il sayında Dəmirçioğlu imzası ilə dərc olunan "Moskva yollarında" [22] adlı xatirələr də həmin dövrün diqqət çəkən ədəbi nümunələrindəndir. Əsərin mövzusunu M.Ə.Rəsulzadənin və əmisi oğlu, məsləkdaşı Məhəmməd Əli bəyin Stalinin təşəbbüsü ilə Moskvaya aparılarkən yol boyu qatarda baş verən hadisələr təşkil edir. Xatirələr Azərbaycanda 1920-ci illərdəki ictimai-siyasi proseslərin inikası baxımından qiymətlidir. "Dəmirçioğlunun "Moskva yollarında" əsəri istiqlal məfkurəsi ilə bolşevik zehniyyətinin qarşıdurması kontekstində" adlı məqaləmizdə müəllifin kimliyi barəsində qənaətimizi bölüşmüşük.

1930-cu illər mühacirət nəsrinin diqqət çəkən nümunələrindən biri də M.Ə.Rəsulzadənin Azəri imzası ilə yazdığı, "İstiqlal" qəzetinin 10 yanvar 1932-ci il sayında yayımlanan "Kiçik Yan" [23] hekayəsidir. Eyni il həmin qəzetin 25 sentyabr nömrəsində polkovnik İsrafil İsrafilovun "Azərbaycan ordusu" [24] adlı xatirələri də dərc olunmuşdur.

M.Ə.Rəsulzadənin 1935-ci ilin oktyabrında "Qurtuluş" dərgisində çıxan "Hürriyyət meydanı. Yadımda qalanlardan" [25] əsəri də mühacirətin ədəbi xəzinəsində diqqəti çəkir.

Azərbaycan mühacirət nəsrinin təşəkkülü haqqında danışarkən ilk növbədə xatırlanan müəlliflərdən biri ölkəmizin və Türkiyənin ictimai-siyasi, ədəbi-mədəni həyatında mühüm rol oynamış Ə.Ağaoğludur. Bu vaxta kimi onun zəngin, bənzərsiz yaradıcılığı haqqında, o cümlədən mühacirətəqədərki və mühacirət dövrü irsindən az-çox bəhs edilmişdir. Lakin nəzərə alsaq ki, onun hələ Sorbonnadan başlayan, "Həyat", "Füyuzat", "Kaspi" ilə, sonralar Türkiyə mətbuatı ilə davam edən yaradıcılığı fundamental şəkildə araşdırılmamış, əsərləri tam halda öyrənilməmişdir, o zaman Ə.Ağaoğlu irsinin əzəməti göz önündə canlanar.

Ə.Ağaoğlunun 1930-cu illər yaradıcılığında Türkiyə Cümhuriyyətində dövlət quruculuğu sahəsində həyata keçirilən islahatlar kimi aktual mövzular geniş yer tutur. Müəllif həmin illərdə qələ-

mə aldığı “Sərbəst firqə xatirələri”ndə [26] də məhz bu mövzuya toxunmuşdur. Onun 1930-cu ildə İstanbulda ayrıca kitab şəklində nəşr edilmiş “Sərbəst insanlar ölkəsində” [27] əsəri isə vətəndaş cəmiyyəti quruculuğu probleminə həsr olunmuşdur. “Vicdan diyarında”(1933) [28], “Cəmiyyət həyatımızda nöqsan prinsiplər” (1935) [29], “İnsana hörmət” (1935) [30], “İki zehniyyət” (1935) [31] bədii-fəlsəfi nəsr nümunələri də eyni mövzuda yazılmışdır. Müəllifin “Ən böyük əskiyimiz” (1935) [32], “Mən nəyəm?” (1936, 1939) [33], “Qiyamətdən məktublar” (1937) [34], “Tanrı dağında” (1939) [35] əsərləri isə Azərbaycan mühacirət nəsrinin təşəkkül dövrünün əsas mövzularından olan mənəvi-əxlaqi problemlərə toxunması ilə diqqəti çəkir. “Qiyamətdən məktublar” tam halda əlimizdə yoxdur. Görünür, müəllif əsərini ya tamamlamamış, yaxud da müəyyən səbəblərdən çapına nail olmamışdır. Ədib “Altmış yeddi il sonra” əsərini də ömrünün sonlarında yazmağa başlamış və bitirə bilməmişdir. Sözügedən xatirələrin bir qismi “Kültür həftəsi” məcmuəsinin 1936-ci il 3-7-ci saylarında işıq üzü görmüş, daha sonra isə oğlu Səməd Ağaoğlunun “Babamdan xatirələr” adlı kitabında yer almışdır [36].

Qadın hüquqları, qadının cəmiyyətdə yeri və rolu problemi də Ə.Ağaoğlu yaradıcılığında mühüm yer tutur. “Cümhuriyyət” qəzetinin 16-17 avqust 1934-cü il saylarında yayımlanan “Yeni nəsil arasında”[37], 15 aprel 1935-ci il sayında nəşr olunan “Həm haqlı, həm haqsız”[38], 6 may 1935-ci il sayında dərc edilən “İki bayan arasında”[39], 8 sentyabr 1936-ci il sayında çıxan “Fransada bir əsrə yaxın rol oynayan böyük qadın”[40] sərlövhəli bədii-fəlsəfi və bədii-sənədli nəsr örnəkləri bu baxımdan səciyyəvidir. Müəllifin eyni mövzuya həsr olunmuş “Cümhurrəisimizin amerikalılara xitabı”[41], “Bir tək nəfər gibi” [42] adlı əsərləri isə “İkdam” qəzetinin müvafiq olaraq 1 mart 1939 və 11 aprel 1939-cu il saylarında işıq üzü görmüşdür. Sözügedən əsərlərdə təsvir olunan dövrün vacib problemlərinə toxunulur, Türkiyə Cümhuriyyətində qadınlara seçmək və seçilmək hüququ verən böyük öndər Mustafa Kamal Atatürkün başladığı islahatların mahiyyəti, qadınların öz haqlarına sahib çıxma səyləri və bundan doğan nəticələr açıqlanır.

1930-cu illər Azərbaycan mühacirət nəsri örnəkləri içərisində türk dünyasının böyük simaları, türkçü ideoloqları haqqında yazılmış əsərlər də mühüm yer tutur. Bu baxımdan, Ə.Ağaoğlunun “Cümhuriyyət” qəzetində dərc olunmuş “Ziya Göyalpa dair bəzi xatirələrim” [43] və “Yusuf Akçura” [44] adlı nəsr örnəkləri bu görkəmli şəxsiyyətlərin bədii-sənədli obrazını canlandırması ilə diqqəti çəkir.

**YEKUN NƏTİCƏ**

Göründüyü kimi, 1920-30-cu illər Azərbaycan mühacirət nəsri istər kəmiyyət, istərsə də mövzu baxımından zəngin olmaqla yanaşı, bu irsin böyük əksəriyyəti sənətkarlıq cəhətdən də dəyərli əsərlərdir. Adları çəkilən hekayə, bədii-fəlsəfi və bədii-sənədi nəsr nümunələri ayrı-ayrılıqda, bir çoxu ilk dəfə olmaqla, ölkəmizdə və xaricdə dərc etdirdiyimiz müxtəlif məqalə, konfrans materiallarında bu və ya digər dərəcədə araşdırılaraq təhlil olunmuş, dəyərləndirilmişdir.

**ƏDƏBİYYAT**

1. Cabbarlı, N. Azərbaycan mühacirət nəsri / N.Cabbarlı. − Bakı: Elm və təhsil, − 2011. − 140 s.
2. Tahirli, A. Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991) / A.Tahirli. − Bakı: CBS Polygraphic Production, − 2005. − 528 s.
3. Mim. Cefer Bey. “Acı hatıralar” silsilesinden // − İstanbul: Yeni Kafkasya, − yıl 1 (1923-1924). sayı 15, − s. 13-14.
4. Mim. Gülzar Hanım. “Acı hatıralar” silsilesinden // − İstanbul: Yeni Kafkasya, − yıl 1 (1923-1924). sayı 15, − s. 14-15.

5. Mim. Hatırat ve Teessürat. O gün ve... bugün // − İstanbul, Yeni Kafkasya, yıl 1 (1923-1924). sayı 17, − s. 18-19.
6. Mim. Elifoğlu Muherrem. “Acı hatıralar” silsilesinden // − İstanbul: Yeni Kafkasya, − yıl 2 (1924-1925). sayı 15, − s. 13.
7. Mim. Anne, gördüm // − İstanbul: Yeni Kafkasya, − yıl 4 (1926-1927). sayı 21, − s. 15-16.
8. Şimşir, S. Azerbaycan’ın istiklâl mücadelesi // S. Şimşir. – İstanbul: İQ Kültür Sanat Yayıncılık, − 2013. – 280 s.
9. Can, Adem. “Yeni Kafkasya” mecmuası // Bilig, − 2007. sayı 41, − s. 109-122
10. Mirza Bala. Vatan kaldı! // − İstanbul: Yeni Kafkasya, − yıl 3 (1925-1926). sayı 8, − s. 15-16.
11. Mirza Bala. Yıldırım // − İstanbul: Yeni Kafkasya, − yıl 2 (1924-1925). a) sayı 17, − s. 20-24; b) sayı 18, − s.14-16; c) sayı 19, − s. 14-16.
12. Taşdemir. Azerbaycanın Ergenekondan çıktığı gün (Hatıra defterimden) // − İstanbul: Yeni Kafkasya, − yıl 2 (1924-1925), sayı 17, − s. 17-19.
13. Mehmetzade, M.B. On defa öldürülen. “Yeni Kafkasya” mec., − İstanbul, 15 kanuni-evvel 1341 – 29 cemaziyü`l – evvel 1341 (15 dekabr 1925). sayı 6, − s. 15-16.
14. Mehemmedzade, M.B. İran hatıraları. İranda Azerbaycan muhacirleri // − İstanbul: Yeni Kafkasya, − yıl 4 (1926-1927). a) sayı 4, − s. 7-9; b) sayı 5-6, s.13-14; c) sayı 13, − s. 10-12.
15. Mim. Elif (Resulzade Mehmet Emin). Gazeteci Seyyid // − İstanbul: Yeni Kafkasya, − yıl 3 (1925-1926). sayı 12, − s. 10-11.
16. Sanan. İstiklal mücadelesinden bir vaka (Hatıra defterimden bir yaprak) // – İstanbul: Yeni Kafkasya, − yıl 2 (1924-1925). sayı 14, − s. 4-7.
17. Sanan. Meşum bir hatıra // − İstanbul: Yeni Kafkasya, − yıl: 4 (1926-1927). sayı 15, − s. 15-16.
18. Dəmirçioğlu. Zarif Efendi. “Acı hatıralar” silsilesinden // − İstanbul: Yeni Kafkasya, − yıl 2 (1924-1925). sayı 15, − s. 14.
19. Dəmirçioğlu. Bugünün hatırası // − İstanbul: Yeni Kafkasya, − yıl 2 (1924-1925). sayı 17, s. 15-17.
20. Emircan, F. İntikam alan kölge // – İstanbul: Yeni Kafkasya, − yıl 3 (1925-1926). sayı 12, − s. 15-16.
21. Ağaoğlu, B.E. Solovkide gördüklerim // Bildiriş. − 1930, 14 avqust-13 ikinci teşrin. sayı 2-15, − s.3.
22. Demirçioğlu. Moskva yollarında // − İstanbul: Odlu yurt, − yıl 3 (27 nisan 1931). sayı 2 (27), − s. 59-61.
23. Azeri. Küçük Yan // İstiklal. − yıl 1, 1932, 10 ikinci kânun. №1, − s. 2-3.
24. İsrafil. Azerbaycan ordusu // İstiklal, − yıl 1, 1932, 25 eylül. № 16, − s.
25. Resulzade, M.E. Hürriyyet meydanı (yadımda qalanlardan) // Kurtuluş, − yıl 2, 1935, ilk teşrin. sayı 12, − s. 342-345.
26. Ağaoğlu, A. Serbest Fırka hatıraları (2. baskı) / A.Ağaoğlu. − İstanbul: Baha Matbaası, − 1969. − 160 s.
27. Ağaoğlu, A. Serbest insanlar ülkesinde / A.Ağaoğlu. − İstanbul: Sanayii nefise matbaası, −1930. − 128 s.
28. Ağaoğlu, A. Vicdan diyarında // Akın. a) – 1933, 6 haziran. sayı 9, – s. 2, b) – 1933, 7 haziran. sayı 10, – s. 2, c) – 1933, 8 haziran. sayı 11, – s. 2, ç) – 1933, 9 haziran. sayı 12, – s. 2, d) – 1933, 10 haziran. sayı 13, – s. 2, e) – 1933, 12 haziran. sayı 15, – s. 2, ə) – 1933, 14 haziran. sayı 17, – s. 2, f) – 1933, 19 haziran. sayı 22, – s. 2.
29. Ağaoğlu, A. Cemiyet hayatımızda noksan prensipler // Cumhuriyet. – 1935,15 mart. № 3891, – s. 3.
30. Ağaoğlu, A. İnsana hürmet // Milliyet. – 1935, 15 nisan. № 3296, – s. 2.
31. Ağaoğlu, A. İki zihniyet // Cumhuriyet. – 1935, 11 birinciteşrin. № 4098, – s.3.
32. Ağaoğlu, A. En büyük eksiğimiz // Milliyet. – 1935, 18 şubat № 3243, – s. 2.
33. Ağaoğlu, A. Ben neyim? // Cumhuriyet. a) – 1936, 5 eylül. sayı 4423, − s. 3, b) – 1936, 7 eylül. sayı 4425, − s. 3, c) – 1936, 9 eylül. sayı 4427, − s. 3, d) − 1936, 11 eylül. sayı 4429, − s. 3, e) − 1936, 14 eylül. sayı 4432, − s. 3, ə) − 1939, 8 ikincikanun. sayı 5265, − s. 3, f) – 1939, 12 ikincika-

nun. sayı 5269, − s. 3, g) – 1939, 15 ikincikanun. sayı 5272, − s.3, ğ) – 1939, 19 ikincikanun. sayı 5276, − s. 3.
34. Ağaoğlu, A. Kiyametten mektuplar // − İstanbul: Hər ay, − 1937, 20 haziran. − s. 42-46.
35. Ağaoğlu, A. Tanrı dağında // Cumhuriyet. – 1939, 2-5 ikincikanun. № 5259-5262, − s.3.
36. Ağaoğlu, A. Altmış yedi yıl sonra // Ağaoğlu Samet. Babamdan Hatıralar. − Ankara: − 1940. − s. 61-122.
37. Ağaoğlu, A. Yeni nesil arasında // Cumhuriyet. – a) 1934, 16 ağustos. № 3692, – s. 3; b) 1934, 17 ağustos. № 3693, – s. 3.
38. Ağaoğlu, A. Hem haklı, hem haksız // Cumhuriyet. – 1935, 15 nisan. № 3919, – s. 3.
39. Ağaoğlu, A. İki bayan arasında // Cumhuriyet. – 1935, 6 mayıs. № 3940, – s. 3.
40. Ağaoğlu, A. Fransada bir asra yakın rol oynıyan büyük kadın // Cumhuriyet. – 1936, 8 eylül. № 4426, – s. 3.
41. Ağaoğlu, A. Cümhurreisimizin Amerikalılara hitabı // İkdam. – yıl 1, 1939, 1 mart. №46, – s. 1, 3.
42. Ağaoğlu, A. Bir tek nefer gibi // İkdam. – yıl 1, 1939, 11 nisan. №87, – s. 1, 3.
43. Ağaoğlu, A. Ziya Gökalpa dair bazı hatıralarım // − İstanbul: Cumhuriyet, − 1934, 27 teşriniev-vel. sayı 3764, − s.3.
44. Ağaoğlu, A. Yusuf Akçora. − İstanbul: Cumhuriyet, − 1935, 13 mart. sayı 3889, − s.3.

## A COLLECTIVE VIEW OF AZERBAIJAN EMIGRATION PROSE OF THE 1920S-30S

**A.R. Efendiyeva**

Since the wave of our political emigration after the collapse of the Azerbaijan Democratic Republic was massive and organized, its written heritage is also quite rich and multifaceted. Poems, prose and drama works written on various topics, examples of literary criticism, artistic and political journalism confirm this conclusion.

In the Azerbaijani emigration literature of the 1920s and 1930s, prose, along with poetry, also occupied a special place. The prose of this period is represented mostly by literary-documentary and literary-philosophical works, and partly by stories.

The prose works of the period in question can be classified into three main groups in terms of subject matter: the struggle for independence, portraits of independence fighters, in other words, reflections of the "Azerbaijani cause"; works reflecting the construction of civil society and moral and ethical problems; descriptions of the merciless struggle against Bolshevism and the totalitarian Soviet regime, the theme of the "camp".

The article concludes that The Azerbaijani emigration prose of the 1920s-30s is not only rich in terms of quantity and subject matter, but the vast majority of this heritage is also valuable in terms of mastery. These prose examples have been examined, analyzed, and evaluated to one degree or another in various articles and conference materials that we have published in our country and abroad, many of them for the first time. In this article, which reflects a general view of the emigration prose of the period in question, the development of the genre has been traced by topic and in chronological order.

**Keywords:** *story, literary-philosophical prose, literary-documentary prose, topic,* political emigration.

## ОБЗОР АЗЕРБАЙДЖАНСКОЙ ЭМИГРАНТСКОЙ ПРОЗЫ 1920-30Х ГОДОВ

**А.Р. Эфендиева**

После распада Азербайджанской Демократической Республики волна нашей политической эмиграции была массовой и организованной, что отразилось и на ее письменном наследии, которое также весьма богато и многогранно. Подтверждением этому служат многочисленные примеры как поэтических, прозаических, драматических произведений, так и образцы литературоведческих трудов, художественной и политической публицистики, посвященные различным темам.

В азербайджанской эмигрантской литературе 1920-30-х годов проза, наряду с поэзией, занимала особое место. Проза отмеченного периода представлена, главным образом, художественно-документальными и художественно-философскими произведениями, а также частично рассказами.

По своей тематике прозаические произведения данного периода можно условно разделить на три группы: борьба за независимость, портретная галерея ее участников, другими словами, отражение “Азербайджанской борьбы”; произведения, посвященные вопросам построения гражданского общества и морально-этическим проблемам; описание беспощадной борьбы с большевизмом, тоталитарным советским режимом, “лагерная” тема.

Автор статьи приходит к следующему выводу: азербайджанская эмигрантская проза 1920-30-х годов не только многочисленна, разнообразна по своей тематике, но и большая часть этого наследия отличается высоким художественным мастерством. Данные прозаические образцы в различных аспектах были исследованы, проанализированы и оценены автором статьи в многочисленных статьях и материалах конференций, опубликованных как в нашей стране, так и за рубежом.

В статье, посвященной обзору эмигрантской прозы рассматриваемого периода, в хронологической последовательности прослеживается развитие тематического своеобразия данного жанра.

**Ключевые слова:** *проза, художественно-философская проза, художественно-документальная проза, тема, политическая эмиграция.*